# Niyə UNEC MBA Proqramı?

UNEC MBA Proqramı magistrantlara beynəlxalq standartlara uyğun, müasir və praktik yönümlü təhsil təqdim etməklə onların peşəkar, akademik və şəxsi inkişafını dəstəkləyir. Proqramın əsas üstünlükləri aşağıdakılardır:

-Siz Şərq ilə Qərbin qovuşuğunda və Xəzər dənizinin sahilində yerləşən, sabitliyin hökm sürdüyü, bəşəri dəyərləri və multikulturalizimi təşviq edən, dini və etnik tolerantlığın mövcud olduğu Azərbaycanda təhsil alacaqsınız;

-Tədris Azərbaycan, ingilis və rus dillərində aparılır və müxtəlif ixtisaslaşmalar üzrə təhsil almaq imkanı yaradır;

-Tədris prosesi nəzəri biliklərin praktik tətbiqinə əsaslanır, real biznes nümunələri, simulyasiyalar, layihəəsaslı öyrənmə və interaktiv tədris metodlarından geniş istifadə olunur;

-Proqramın akademik heyəti 150-dən çox professor-müəllimdən ibarətdir. Onların əksəriyyəti ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin nüfuzlu universitetlərində təhsil almış iqtisad üzrə fəlsəfə doktorları, beynəlxalq sertifikatlı mütəxəssislər və şirkət rəhbərləridir;

-Professor-müəllim heyəti tədris prosesində elmi araşdırmaların nəticələrini və müasir biznes təcrübəsini tədrisə inteqrasiya edərək magistrantların nəzəri biliklərlə yanaşı praktik kompetensiyalar əldə etmələrini təmin edir;

- Proqram magistrantlarda tənqidi düşünmə, liderlik, peşəkar kommunikasiya, analitik təhlil, rəqəmsal savadlılıq, süni intellektdən səmərəli istifadə və müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişafına xüsusi önəm verir;

- UNEC MBA Proqramı bir sıra nüfuzlu xarici universitetlərlə əməkdaşlıq çərçivəsində ikili diplom proqramları təklif edir ki, bu da magistrantlara eyni zamanda həm UNEC-in, həm də tərəfdaş universitetin diplomunu əldə etmək imkanı yaradır;

- UNEC MBA Proqramın geniş beynəlxalq əməkdaşlıq şəbəkəsi magistrantlara akademik mobillik, beynəlxalq layihələr, qonaq professor mühazirələri, elmi-tədqiqat fəaliyyəti və xarici tərəfdaşlarla peşəkar əlaqələrin qurulması üçün əlverişli imkanlar təqdim edir;

- CEO-ların, sahibkarların və biznes liderlərinin mütəmadi olaraq tədris prosesinə cəlb edilməsi magistrantların real biznes təcrübəsindən faydalanmasına və peşəkar dünyagörüşünün formalaşmasına şərait yaradır;

-UNEC MBA Proqramını seçməklə magistrantlar yüksək akademik mühitdə təhsil almaq, peşəkar şəbəkələrini genişləndirmək və yerli, eləcə də beynəlxalq əmək bazarında rəqabət qabiliyyətlərini artırmaq imkanı əldə edirlər.